**“Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə** [1]

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, 2, maddə 82; 2001, 12, maddə 736; 2002, 3, maddə 116, 5, maddə 245; 2004, 2, maddələr 57, 58; 2005, 4, maddə 278; 2007, 8, maddə 752, 11, maddə 1079; 2009, 4, maddə 212, 8, maddə 611; 2010, 3, maddə 172; 2015, 2, maddə 82) 44-cü maddəsinə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

“Kütləvi informasiya vasitəsində cinayət işləri üzrə ibtidai araşdırmanın mahiyyəti və nəticələri barədə həqiqətə uyğun olmayan və ya təhrif edilmiş məlumatlar verildikdə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən və ya ibtidai araşdırmanı aparan orqan məlumatın təkzib olunması və ya düzəliş verilməsi tələbi ilə müraciət etmək hüququna malikdir.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 20 oktyabr 2015-ci il
1399-IVQD

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 30 dekabr 2021-ci il tarixli **471-VIQ** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 9 fevral 2022-ci il, 29 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 2, maddə 90**)

**QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 30 dekabr 2021-ci il tarixli **471-VIQ** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 9 fevral 2022-ci il, 29 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 2, maddə 90**) ilə ləğv edilmişdir.